İkinci yazı

# Dünyanın ən acı təlaşı şəhid analarının ürəyində qövr edir...

**Mingəçevirin Günəşli qəsəbəsi bəlkə də adı kimi günəşli deyil; burada günəşin al şəfəqləri çöhrələrə soyuq təbəssüm sıçradır. Darısqal döngələr, sakit, səssiz yollar, hətta yanından ötən insanlar sanki qaş-qabaqlı, sanki hüzn içindədir. Kimdənsə bunun səbəbini soruşmağa ürək etmirik. Ancaq hiss edirik ki, Vətən müharibəsindən sonra gözlərdə, ürəklərdə təlatüm edən sevinc hissi qədər bir susqun görkəm də var.**




Anlaşılandır; ən azı beş-on evdən birində şəhid ağrısı, acısı sinə deşir...

Musa və Tural qardaşlarının anaları Nəhayət xanımın da içini acı sızıltılar sarıb. Ona övladları ilə bağlı zəng vuranda da səsində ağır bir ləngər, iç göynədən bir sızıltı hiss etmişdim. Ya ünvanı səhv demişdilər, yolu-rizi səhv göstərmişdilər, bəlkə də üzərimə çökən ağırlıqdan mən səhv anlamışdım, yad bir səmtə getmişdim, Nəhayət xanıma zəng vuranda, dedi ki, qarşı küçədən sağa dön, yolun başında qarşılayacam...

Çılğın-dəli küləklərin müşayiəti ilə sağ küçə ilə qarşıya keçdim. Yan səmtdə söhbət edən iki qadın dedi ki, ilk dəfədir Mingəçevirdə bu cür dəli külək əsir. Bir anlıq elə bildim, küləyi bu işıqlar şəhərinə mən gətirmişəm...

Küçənin dolanbacından sağa burulanda qarşıda qara paltarlı, boynu sağ çiyninə əyilmiş bir qadın gördüm. Elə bildim, yaşıllığı itmiş bir vadidə musson küləkləri iki qaya parçasını üst-üstə qoyub, üstdəki parçanı bir qədər yana əyib. Belə təsir bağışladı Nəhayət xanım. Ona əziyyət verdiyim üçün özümü qınadım. Aramızdakı yüz metrlik yolu bəlkə də yüyürdüm, ya süründüm, bəlli olmadı, Nəhayət xanım rəngi solmuş gözlərindəki kədəri gözlərimə yük etmədən məni salamladı, birlikdə Musa və Tural qardaşlarının boya-başa çatdığı evə tərəf addımladıq...

Ani olaraq susqunluq girdabına tutuldum. Qəfil gələn hiss ayaqlarımı daş yola pərçimlədi. Güclü külək saçlarımı dağıda-dağıda gözlərimə hücum çəkdi, lakin diqqətimi birazdan kandarına ayaq basacağım evin qəribə təzad doğuran aurasına yönəldə bildim: darvazanın sağ səmtində şəhid qardaşların xatirəsinə bulaq komleksi inşa edilib. Kompleks aşkar bir Vətən hissi, coşqun bir vətənpərvərlik sevdası aşılayır. Bir tərəfdə Musanın, digər tərəfdə Turalın büstü var. Külək də yuxarı səmtlərə sancılmış bayraqlarımızı yovşanlı dərələrin yulğun ağacları kimi yelləyir... İçimə qəhər doldu. Bəlkə də Nəhayət xanım - buyur, oğlum, içəri keç, - deməsəydi, Allah bilir, hansı ilğıma qoşulub, hansı acının əsarətində əriyəcəkdim...

Həyətə daxil oluruq. Ev başdan-başa bir vətənpərvərlik mücəssəməsi kimi görünür. Nəhayət xanımın müşayiəti ilə söhbət edəcəyimiz otağa keçirik. Bura sanki şəhid qardaşların muzey-xatirə ocağıdır. Divarlardakı foto-stendlər, masa üstünə qoyulmuş şəkillər Nəhayət xanımı elə ayaq üstə dinləməyə vadar edir...

Otaqdakı ab-havanın müşayiəti ilə Nəhayət xanım şəhid övladları barədə danışır. Əslində, danışmır, sakit-sakit qan ağlayır, fəryad qoparır, bayırdakı külək kimi təlatümə gəlir... Qərəz kimi görünməsin, o, bəlkə də hər gün yüz dəfə ölür, dirilir, hər qapısını açana həyat qubarının nə qədər acı olduğunu anladır.

Nəhayət xanım anidən gözlərinin vücudunu dəyişib iliq hənirtilərlə dedi ki, Musa şair idi, altmışa yaxın şeiri var. Görün bir şeirində nə yazıb:

Nə gözəl qardaşsan,
mənim qardaşım,
Gəl, elə dünyadan
birlikdə köçək...

Misralar təxminən bu anlamda çıxdı Nəhayət xanımın dodaqlarının arasından. Dedi ki, Musa sanki qardaşı ilə birlikdə öləcəyini bilirmiş. Əvvəlcədən bu fikirləri dilinə gətirib...

İnsafən, misralar son dərəcə poetik və bədiidir. İçindəki məna ümumiyyətlə, moderndir. Müasir şeirin orijinal şəkillərindəndir. Şeiri bütöv halda görə bilməsəm də, bu iki misra Musanın poetikası haqda çox şey dedi.

Nəhayət xanım qaysağı qopmuş sızıltılarla ərz etdi ki, Musanın qəbir daşında özünün yazdığı bir parça şeir əks olunub... Hər dəfə oradakı misraları oxuyanda dünyamız dağılır, sinəmiz od tutur...

Söhbətimiz nə qədər davam edir, bilmirik, bəlkə də heç danışmırıq, fərqinə varmırıq, anidən sağollaşırıq. Külək darvazanın qapısını açır, sonra da sanki bağlayır. Bir anlıq arxaya boylanıram, Nəhayət xanımı tonlarla ağırlığı olan bir qaya parçası kimi görürəm. Sanıram ki, dünyanın ən acı təlaşı onun övlad nisgili ovan ürəyində qövr edir...

Və sanıram ki, dünyanın ən acı təlaşı bütünlükdə şəhid analarının övlad nisgili ovan ürəklərində qövr edir...

Musa və Tural qardaşlarının adı verilən küçədə onların xatirəsinə bir lövhə qurulub. Lövhədə güclü vətənpərvərlik hissi var. Elə bu təsirdən orada özümdən ixtiyarsız Vətən müharibəsi ərəfəsində yazdığım bir şeiri pıçıldadım:

***

...Dur, əsgərim!
Düşmən ipə-sapa yatmır,
Vur, əsgərim!
Şeytan yenə hiylə qurur,
O iblisin qulağını
Bur, əsgərim!
Ana yurdun gözlərinə
qürurla bax,
Çəkilməsin gözlərindən
Nur, əsgərim!
Vətən para-para olub,
Qarabağın sərhədini
İrəvanda qur, əsgərim!
Qoyma yurdda qara bulud,
Yad baxışlar "çiçəkləsin",
Düşmən güllər bitsin...
Torpaq sənə əmanətdir,
Ana yurdun keşiyində
möhkəm dayan, dur, əsgərim!
...Vur, əsgərim!

Döyüş yoldaşının Tural barədə dediyi sözlər yadıma düşdü... Əmin oldum ki, o, yaralı halda mühasirədən çıxmaq üçün yuxarı səmtdən güllələri yağış kimi yağdıran düşmənə atəş açanda da eynən bu cür hayqırıbmış: Vur, əsgərim!...

**"Musa və Tural qardaşları küçəsi"**

Musa və Tural qardaşları barədə kitab yazmaq tapşırığı alanda dərhal vikipediyaya nəzər saldım. Göstərdikləri qəhrəmanlığı əks etdirən ümumi bir məlumatda əvvəlcə Musanın, sonra da Turalın adı çəkilirdi. Redaksiyada da birinci Musanın adı çəkilirdi. Mən də onların adlarını yaddaşıma bu şəkildə hopdurdum. Hətta Mingəçevir Şəhər İcra Hakimiyyətində olarkən də birinci Musanın adı çəkildi. Günəşli qəsəbəsinin sol səmtindəki küçədə əks olunmuş lövhədə də elə "Musa və Tural qardaşları küçəsi" sözləri əks olunmuşdu. Düşündüm, yəqin böyük qardaşdır, ona görə hörmət əlaməti olaraq belə deyirlər. Bir daha vikipediyaya diqqət etdim. Bu zaman əks bir diqtə ilə qarşılaşdım, bəlli oldu ki, Musa əslində, ailənin kiçik övladıdır, lakin Turaldan qabaq şəhid olub...

Bu zərurəti şəhidlərin anası Nəhayət xanımla da müzakirə etmək fikrim var idi. Lakin onun ləngər vuran dərdi, iç göynədən ağrı-acısı qarşısında nitqim qurudu, mövzunu başqa səmtlərə çəkdim. O, içində sızıldaya-sızıldaya dedi ki, Musa tankın içində yanaraq həlak olub (bunu telefonla danışanda da demişdi...). Bir müddət nə ondan, nə də Turaldan xəbər tuta bilmədik. Meyitləri neytral zonada qaldığı üçün bizə bir söz demirlərmiş. Sonra ard-arda - müəyən aralıqla hər iki övladımın şəhid olması barədə sarsıdıcı xəbərlər aldım. Çox az ara ilə üstümə iki tabut gətirdilər. Mən bədbəxt, mən qaragün necə dözdüm buna? Ağlamaqdan səsim batdı, ancaq ölmədim. İndiyə qədər sızıldayıram. Ölənə kimi bu sızıltı məni rahat buraxmayacaq. Bəlkə öləndən sonra da övlad acıları məni köz edəcək...

Nəhayət xanım sakit-sakit göynəyir, fikirlərini cəm edə bilmirdi. Bəlkə də küləyin səsinə diksindi, dedi:

- Həyat yoldaşım üçün də çox ağır idi. Elə gün olmurdu ki, ağlayıb-sızıldamasın. Arada nəvələri ilə dərdini dağıdırdı. Amma dözə bilmədi. Dünyasını dəyişdi. Bu, mənə üçüncü zərbə oldu. Sinəmdə üç dağ gəzdirirəm indi. Qubardan içim parçalanır, gözümün içində elə göynərtilər var ki, sözlə təsvir etmək mümkün deyil...

**Sözardı:** "Torpağın üzü soyuqdur" deyirlər. Zaman yaraları tez unutdurur. Ancaq bu, bütün hallarda mümkün olmur...

İllər ötəcək, nəsillər dəyişəcək, lakin şəhid adı, şəhid andı itməyəcək. Mingəçevirin Günəşli qəsəbəsinə ayaq basanlar "Musa və Tural qardaşları küçəsi" yazılmış lövhənin qarşısında dayanıb əvvəlcə bir anlıq sükuta dalacaq, sonra onların şəhid adı qarşısında baş əyəcək, ehtiram ifadə edəcəklər. Bu da o anlama gələcək ki, qəhrəmanlıq səhifələrini tarixdən silmək olmur. Necə ki, Cavanşir, Babək, yeni əsrlərdə Mübariz, Fərid, Polad və digərləri xatırlanır, eləcə də Musa və Tural qardaşları, onların timsalında bütün şəhidlər xalqımızın and yeri olacaqlar...

**Bu şərəf onları da daim şərəfli edəcək...**

Əvvəllər - bizdən çox uzaq illərdə olduğu kimi, yaxın tarixlərin də insan qətlləri bizi mütəəssir edir. Yaşadığımız həyatın (ədəbi dildə desək) süjet xəttində çırpınan bu nüans zahiri aləmlərdə insanın hansı məcrada nə olduğu barədə dürüst məlumat verir. Biz (fəlsəfi zəmində) insanı taledən gələn səs-səda kimi xarakterizə etmək istəsək də, tarix öz yaddaşını bu "güzəşt" hesabına zamanın axarına verə bilir. Əslində, həyatdakı mənəvi təsirlər bu "güzəşt"in bir eskizidir. Yaddaş mənbəyi kimi əks edən hadisələr əsasən insan qətlləri barədə acınacaqlı faktlar və dəhşət saçır. Bu yaddaş tablosunda nə duyğuda təzahür edən fəlsəfi hiss var, nə də ədəbi prosesə eyham vuran lirik təsir; burada yalnız milli xarakterdə əks olunan vətəndaşlıq, ağrı və girdablara mənəvi ağırlıq verən insan meylləri var və bu da faciə, dəhşət müstəvisidir. Sanırıq ki, müharibələri törədən insanlar bu prosesi sürətləndirməkdə, artırmaqda və daha qabarıq etməkdə israrlıdırlar. Çünki müharibələr insan və həyat tiplərini, bu israrda əks edən insan qətllərini bəşəri statuslar kimi təqdim edir. Buna görə hər bir insanın həyatı gələcəyi məhv edilmiş bir xalqın xarakteridir. Əsasən də, müharibələr insan həyatına xəyanətdən doğan ağrılardır, ümumilikdə tarixi zəminin, həyat acısının və tale ucalığının təsirində qətl, soyqırım törədən vəhşi simaların xarakterini açır.

Mingəçevirli şəhid qardaşlar Musa və Turalın qəhrəmanlıq səhifələrini oxuduqca bir qənaətə gəlirik ki, erməni şovinizmi, onlara havadarlıq edən ermənipərəsət ölkələr yetkin insanlarla yanaşı, minlərlə azərbaycanlı gəncin də gələcək həyat-tale pərvanələrinin yüksək zirvələrdə bərq vurmasına mane olub, bu nəsli xoşbəxtlik deyilən nəsnədən məhrum qoyub, nəticədə onların gələcəklə bağlı yaşantıları çırpıntı içində qalıb. Bu nəsil əslində, böyük bir həyata, mənalı, şərəfli bir ömrə sahib olmaq üçün səfərbər olunmuşdu...

*(Ardı növbəti sayımızda)*

Hikmət Məlikzadə